*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 194-197* *E-ISSN 2709-2699*
*http://dx.doi.org*

# "Elm və həyat" jurnalında Mirzə Cəlilin 100 illiyi

**Gülnar Qasımlı**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulnar0486@mail.ru

**Annotasiya.** Məqalənin əsas tədqiqat mövzusu "Elm və həyat" jurnalıdır. Burada jurnalın Cəlil Məmmədquluzadəyə münasibəti araşdırılır. Əsasən "Elm və həyat" jurnalının 1960-1970-ci illərdə çıxan saylarına istinad olunub. Bu da Cəlil Məmmədquluzadənin 100 illiyinin həmin dövrə təsadüf etməsi ilə bağlıdır. Bu münasibətlə bir neçə məqalə yazılıb ki, onlardan da bəziləri "Elm və həyat" jurnalında çap olunub. Jurnalda çap olunan məqalələr həm Cəlil Məmmədquluzadənin öz yaradıcılığı, həm də "Molla Nəsrəddin" jurnalının fəaliyyəti ilə bağlıdır. Məqalədə altı müəllifin yeddi məqaləsi təhlilə cəlb olunub.
**Açar sözlər:** "Elm və həyat" jurnalı, Mirzə Cəlil, "Molla Nəsrəddin" jurnalı, məqalə, müəllif

**Məqalə tarixçəsi:** göndərilib – 05.12.2022; qəbul edilib – 20.12.2022

# Mirza Jalil's 100th anniversary in journal "Science and Life"

**Gulnar Gasimli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gulnar0486@mail.ru

**Abstract.** The main research topic of the article is "Science and Life" magazine. Here is investigated, the attitude of the magazine to Jalil Mammadguluzade. The issues were mainly referred to the magazine "Science and Life" published in the 1960s and 1970s. This is due to the fact that Jalil Mammadguluzadeh's 100th anniversary coincided with that period. Several articles were written on this occasion, some of which were published in "Science and Life" magazine. The articles published in the magazine are related to both Jalil Mammadguluzadeh's own creativity and the activities of "Molla Nasreddin" magazine. Seven articles by six authors are thoroughly analyzed in the article.
**Keywords:** "Science and Life" magazine, Mirza Jalil, "Molla Nasreddin" magazine, article, author

**Article history:** received – 05.12.2022; accepted − 20.12.2022

## Giriş / *Introduction*

Cəlil Məmmədquluzadənin yaradıcılıq yolu, xüsusilə "Molla Nəsrəddin" jurnalının fəaliyyəti mütəmadi olaraq müxtəlif tədqiqatların mövzusu olmuşdur. "Elm və həyat" jurnalı da bu mövzulara zaman-zaman müraciət etmişdir. Mirzə Cəlilin yüz illik yubileyi 1960-cı illərə təsadüf etdi-

yindən jurnalın həmin illərdə çıxan nömrələrində bu mövzu xüsusilə qabardılmışdır. Hələ 1961-ci ilin noyabr sayında Yəhya Əliyevin "Dinin barışmaz düşməni" (səh. 16-17) məqaləsində C.Məmmədquluzadə ateist kimi təqdim olunaraq, onun dini cəhalət əleyhinə yazdıqları ateizm nümunələri kimi təqdim edilir. 1965-ci ilin sentyabr sayında K.Kərimovun çap etdirdiyi "Təsviri sənət dini ifşa edir" (səh. 16-17) məqaləsində isə "Molla Nəsrəddin"dən karikaturalar verilərək onların təhlili yer almışdır.

1966-cı ilin fevral sayından başlayaraq "C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi qarşısında" sərlövhəli yazılar yer almağa başlayır. Həmin nömrədə "Molla Nəsrəddin" haqqında" (səh.27) başlığı ilə öz dövrünün mətbuatından qısa fikirlər çap olunub. 1966-cı ilin iyun ayında çap olunmuş nömrədə X.Əlimirzəyevin "C.Məmmədquluzadə və rus ədəbiyyatı" [2, s. 24-25], oktyabr ayında çap olunmuş nömrədə isə İ.Rəhimovanın "Danabaş kəndinin əhvalatları"nda komizmin ictimai kökləri" [5, s.24-25] məqalələri yer almışdır.

## Əsas hissə / *Main Part*

X.Əlimirzəyev "C.Məmmədquluzadə və rus ədəbiyyatı" məqaləsində Mirzə Cəlilin rus ədəbiyyatının bilicisi olması və onlardan məharətlə bəhrələnməsi haqqında söz açır. Bir sıra rus yazıçılarının əsərlərinə "Molla Nəsrəddin" jurnalında yer ayırmasından, müasir düşüncəli rus yazıçılarının əsərlərini təbliğ etməsindən yazır: "C.Məmmədquluzadənin 1909-cu ildə "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Papaslar" adlı məqaləsi buna ən yaxşı misal ola bilər. Yazıçı burada rus poeziyasının, ədəbi dilinin ən böyük simaları sayılan Puşkini və Jukovskini xatırlayır, onların rus ədəbiyyatına gətirdikləri realizm, xəlqilik, həyatilik və vətənpərvərlik meyillərini çox yüksək qiymətləndirirdi" [2, s.24].

Məqalədə M.Cəlilin Krılov, Qoqol, Tolstoy kimi yazıçılara olan etiramından da bəhs olunur. Həmçinin ədibin hikmətamiz fikirlərindən sitatlar da verilib: "...Əgər Krılov bilsəydi ki, türklər onun təmsillərini türk dilinə tərcümə edəndə yolçulara "abirin" və itlərə "kilab" adı qoyacaqlar, yəqin ki, Krılov da təmsillərini firəng, ya nemsə dilində yazardı" [2, s.24]. Müəllif ədibin öz əsərlərinə istinad edərək və onlardan sitatlar verməklə Mirzə Cəlilin rus ədəbiyyatından necə sənətkarlıqla bəhrələnməsini göstərmişdir.

İ.Rəhimovanın "Danabaş kəndinin əhvalatları"nda komizmin ictimai kökləri məqaləsində əsər əsaslı şəkildə təhlil edilir, hər bir obrazın "obrazı" yaradılır. Məsələn, bir obrazın təqdimatı belədir: "Bəs Məhəmmədhəsən əmi eşşəyi nə üçün Xudayarbəyə verir? Çünki yaxşı bilir ki, eşşəyi Danabaş kəndinin katdası Xudayarbəyə verməsə, onun qəzəbinə düçar olacaq və Xudayarbəyin qəzəbindən onu heç bir şey xilas etməyəcəkdir. Məhkəmə qurulacaq, Məhəmmədhəsən əminin isə özünü müdafiə etməsi üçün pulu yoxdur" [5, s.24]. Digər əsas obrazların da təhlilində bu cür incəliklər qabardılmışdır. Ümumilikdə əsərin qəhrəmanları haqqında məqalə müəllifi yazır: "Gördüyümüz kimi, danabaşlıların hərəkətlərində, öz dövrünə görə düzgünlük, ağlabatanlıq və məntiq vardır. Danabaşlıların hərəkətlərindəki bu zahiri məntiq heç də təkcə onların şüurundan doğmur, danabaşlıların yaşadıqları cəmiyyətin eybəcərliklərindən irəli gəlir. Müəllifin seçdiyi təhkiyə üsulu, istehza danabaşlıların dünyagörüşünə tamamilə uyğundur" [5, s.25]. Məqalədə obrazların təqdimatındakı özünəməxsusluq, yazıçının da təqdimatında hifz olunur: "Yumorun təmkinli olması, təhkiyə tərzinin sakit xarakter daşıması ümumiyyətlə, komediya ustası C.Məmmədquluzadənin istedadının bir xüsusiyyətidir" [5, s.25].

1967-ci ildə isə mövzu ilə bağlı jurnalda beş məqalə nəşr olunub. Onlardan biri mart, biri aprel, üçü may nömrəsində işıq üzü görüb. Mart sayında Xalid Əlimirzəyevin "Böyük yazıçı haqqında yeni əsər" [1, s.14-15] məqaləsi dərc olunmuşdur. Məqalə Mir Cəlalın "C.Məmmədquluzadə realizmi haqqında" (Bakı, 1966) kitabından bəhs edir. Müəllif monoqrafiyanı belə qiymətləndirir: "Çox ciddi tədqiqat işinin məhsulu olan bu əsərdə böyük ədibimizin yaradıcılığında realizm məsələsi ilk dəfə olaraq öz geniş elmi təhlilini tapmışdır. Kitab həm elmi, həm də məntiqi nəticəyə görə bir-birini tamamlayan iki fəsildən ibarətdir. "Azərbaycan ədəbiyyatında realizmin müəyyənləşməsi və inkişafı haqqında" adlanan birinci fəsildə müəllif C.Məmmədquluzadəyə qədərki ədəbiyyatı-

mızda realizmin mahiyyəti, mövqeyi, inkişaf mərhələləri, formalaşması kimi problem məsələləri nəzərdən keçirmiş və bu haqda bir sıra orijinal, maraqlı fikirlər söyləmişdir” [1, s.14].

Məqalədə monoqrafiyanın növbəti fəsli haqqında da bitkin təəsürat yaradılır: “Kitabın “Cəlil Məmmədquluzadənin realizmi” adlanan ikinci hissəsi və əsas fəsli məhz belə bir ciddi məsələnin – ədibin yaradıcılığında realizmin bir üslub kimi inkişafı, ədəbiyyatımıza gətirdiyi yeniliklər, forma, məzmun xüsusiyyətləri, mütərəqqi, obeyktiv mahiyyəti və s. kimi problemlərin geniş elmi şərhinə həsr edilmişdir” [1, s.15].

Aprel nömrəsində Nəriman Zeynalovun “Molla Nəsrəddin” və elm” [7, s.18-19] məqaləsi “C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi qarşısında” sərlövhəsi ilə yazılan məqalələrdəndir. Məqalədə jurnalın xarici ölkələrdə elmin yeni nailiyyətlərini diqqətdə saxlaması, onu təqdir etməsi məsələlərindən bəhs edilir: “Mollanəsrəddinçilər fransızların hava balonları, almanların təbabət elmi və texnika, ingilislərin gəmiçilik, amerikanların metallurgiya sənayesi və dəmiryolu çəkilişi ilə məşğul olmaqla öz xalqlarına böyük mənfəət verdiklərini qeyd edirdilər” [7, s.18].

1967-ci ilin may nömrəsi özəl olaraq Mirzə Cəlilin yüz illiyinə töhfə kimi çap olunub. Belə ki, jurnalın üz qabığında Cəlil Məmmədquluzadənin şəkli var, eyni zamanda ilk üç məqalə mollanəsrəddinçilər haqqındadır. İlk məqalə Məsud Əlioğlunun “Xalqın böyük oğlu” [3, s.2-4] məqaləsidir. Məqalədə C.Məmmədquluzadənin obrazları sistemləşdirilərək təhlil edilir. Məğrur ziyalılar, zəhmətkeş kəndlilər, sadəlövh qadınlar, məsum uşaqlar və yaramaz qüvvələr kimi qruplaşmalara daxil etdiyi surətlərin təhlili ilə əsərlərin şərhini verir: “Düşündükləri ilə əməlləri arasındakı uçuruma, xəyalları ilə fəaliyyətləri arasında yaranan ziddiyyətlərə görə də cəmiyyət bu qisim ziyalıları “divanə”, “kefli” və “qayğısız” deyə amansızcasına ittiham edir” [3, s.3].

Məqalədə Mirzə Cəlilin tənqid hədəflərinin sistemləşdirilməsi xüsusilə diqqətdən yayınmır: “Ədibin yaradıcılığında yaxşılıq və həqiqət anlayışı ilə müxalifət təşkil edən yaramaz qüvvələr aşağıdakılardan ibarətdir: tərəqqiyə və sağlam düşüncənin imkanlarına qarşı dayanan amillər, xalq azadlığı ideyası əleyhinə çevrilən və vətən, məslək kimi müqəddəs amallara xəyanət edən satqınlar. Sadə adamların əməyi hesabına varlanıb, harınlaşan istismarçılar, qadın azadlığı düşmənləri və bir də fanatizmi, mövhumatı yaymaq yolu ilə xalqı əsrlik yuxuya verməyə can atan cəhalətpərəstlər” [3, s.4].

Həmin nömrədə yayımlanan ikinci məqalə Şamil Qurbanovun “Gülən və güldürən şəkillər” [4, s.5-7] məqaləsidir. Məqalədə jurnalda yayımlanan rəssam işlərinə çox böyük qiymət verilir: “Molla Nəsrəddin”in səhifələrində çap olunan kəskin ifşa gücünə malik rəsmlərin təsir qüvvəsi felyetonlardan geri qalmırdı. Əksinə, onun gülüş hədəfi daha əyani, daha konkret və təsiri daha güclü idi. Əksər hallarda felyetonları karikaturalar tamamlayırdı [4, s.5]. Müəllif karikaturaların tənqid hədəflərini çox dəqiqliklə müəyyənləşdirir: “Molla Nəsrəddin”in rəsmlərini əsas üç yerə bölmək olar: Hakim sinfə, zülm və istismara qarşı çəkilmiş karikaturalar, dinin və köhnə adət-ənənələrin tənqidinə həsr olunmuş karikaturalar, beynəlxalq mövzuda çəkilmiş karikaturalar” [4, s.5]. Göstərilir ki, jurnaldakı karikaturalar ciddi əks-səda verir. Hətta jurnalın taleyi həmin rəsmlərə münasibətdən asılı olur: “1914-cü ildə “Molla Nəsrəddin” bəhailərin başçısı Əbdül-Bəhayinin şəklini eybəcər halda çəkib, onu ifşa edərkən jurnala göstərilən təzyiq daha da artdı və Bakı dindarları Qafqaz canişininə, Aşqabad bəhailəri isə çar hökumətinə şikayət edib, jurnalın bağlanmasını tələb etdilər. Məsələ getdikcə kəskinləşmiş, 1914-cü ilin sonlarında jurnal bağlandı və 1917-ci ilin axırlarınadək bir daha nəşr olunmadı” [4, s.7].

1967-ci ilin may sayında işıq üzü görən üçüncü məqalə Yusif Şirvanın “Molla Nəsrəddin” irtica əleyhinə” [6, s.8-10]məqaləsidir. Məqalədə XX əsrin əvvəllərində İran, Osmanlı və çar Rusiyasında baş alıb gedən irticaya jurnalın münasibətindən, felyetonların və karikaturaların həmin mövzularda olmasından bəhs olunur. C.Məmmədquluzadənin “Dua”, “Möcüzə” felyetonlarından sitatlar verilərək şərh edilir. Məqalənin sonlarına yaxın müəllif vurğulayır ki, “biz bu məqalədə jurnalın ancaq ilk üçillik nəşri dövründəki materiallara toxunduq” [6, s.10]. Məqalə bu cümlə ilə tamamlanır: “Molla Nəsrəddin” jurnalı, onun baş redaktoru həmişə türk xalqlarının səadətini arzulamış, onun azadlıq uğrunda mübarizəsinə “böyük ordular qədər” kömək etmişdir” [6, s.10].

**Nəticə /** ***Conclusion***

Ümumiyyətlə, Cəlil Məmmədquluzadə və onun fəaliyyəti "Elm və həyat" jurnalında tez-tez müraciət edilən mövzulardandır. 1970-ci illərdə də jurnal mövzunu davam etdirmişdir. 1971-ci ilin avqust nömrəsində Camal Əhmədovun "Rotter haqqında bir neçə söz" (səh. 30-31), 1973-cü ilin oktyabr nömrəsində İnqilab imzası ilə "Cəlil Məmmədquluzadə və teatr" (səh. 22-23), 1975-ci ilin sentyabr nömrəsində F.Köçərlinin "Molla Nəsrəddin"in zərərli adət və ənənələrə qarşı mübarizəsi" (səh. 14-15), 1978-ci ilin dekabr nömrəsində Etibar Əhədovun "Molla Nəsrəddin" jurnalının Lənkəran müxbirləri" (səh. 24-25) məqalələri ilə mövzu davam etdirilmişdir.

**Ədəbiyyat /** ***References***

1. Əlimirzəyev, X. "Böyük yazıçı haqqında yeni əsər". "Elm və həyat", 1967, № 3, mart.
2. Əlimirzəyev, X. "C.Məmmədquluzadə və rus ədəbiyyatı". "Elm və həyat", 1966, № 6, iyun.
3. Əlioğlu, M. "Xalqın böyük oğlu". "Elm və həyat", 1967, № 5, may.
4. Qurbanov, Ş. "Gülən və güldürən şəkillər". "Elm və həyat". 1967, № 5, may.
5. Rəhimova, İ. "Danabaş kəndinin əhvalatları"nda komizmin ictimai kökləri". "Elm və həyat", 1966, № 10, oktyabr.
6. Şirvan, Y. "Molla Nəsrəddin" irtica əleyhinə". "Elm və həyat". 1967, № 5, may.
7. Zeynalov, N. "Molla Nəsrəddin" və elm". "Elm və həyat", 1967, № 4, aprel.

## 100-летие Мирзы Джалиля в "Элм вэ Хаят"

**Гюльнар Гасымлы**
Доктор философии по филологии
Институт Литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulnar0486@mail.ru

**Резюме.** Основной темой исследования в статье является журнал "Элм вэ Хаят". Здесь исследуется отношение журнала к Джалилу Мамедкулизаде. В статье основном упоминались номера журнала "Элм вэ Хаят", издававшиеся в 1960–1970-е годы. Это связано со 100-летием со дня рождения Джалила Мамедкулизаде в этот период. По этому поводу было написано несколько статей, некоторые из которых были опубликованы в журнале "Элм вэ Хаят". Статьи, публикуемые в журнале, связаны как с собственным творчеством Джалила Мамедкулизаде, так и с деятельностью журнала "Молла Насреддин". В статье подробно анализируются семь статей шести авторов.
**Ключевые слова:** журнал "Элм вэ Хаят", Мирза Джалил, журнал "Молла Насреддин", статья, автор